# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”nın təsdiq edilməsi barədə**

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1362-VQD nömrəli Qanununun tətbiqi və “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 6 mart tarixli 377 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli 423 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 24 avqust tarixli 772 nömrəli Fərmanı ilə təsdiq edilmiş “İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının hazırlanması və qəbul edilməsi qaydası haqqında Əsasnamə”nin 2.6-1-ci bəndinə uyğun edilə bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 28 aprel 2022-ci il

№ 175

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 28 aprel tarixli 175 nömrəli Qərarı ilə
**təsdiq edilmişdir.**

# Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununun (bundan sonra – Qanun) 5.3-cü maddəsinə əsasən hazırlanmışdır və bu Qaydanın 1.2-ci bəndi nəzərə alınmaqla, əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi qaydasını müəyyən edir.

1.2. 2017-ci il iyulun 1-dək Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərin əmək pensiyasına qulluq stajına görə əlavələrin Qanunun 29.1-ci maddəsinə uyğun olaraq indeksləşdirilməsi və sonrakı artımlar nəzərə alınmaqla yenidən hesablanması Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 iyun tarixli 142 nömrəli Fərmanı ilə təsdiq edilmiş "2017-ci il iyulun 1-dək təyin edilmiş əmək pensiyalarına qulluq stajına görə əlavələrin yenidən hesablanması Qaydası"na əsasən həyata keçirilir.

1.3. Bu Qaydada nəzərdə tutulan hallarda pensiyaların təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi ilə bağlı sənədlər (məlumatlar) Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (bundan sonra – Nazirlik) səlahiyyətli vəzifəli şəxsinin gücləndirilmiş elektron imzası ilə təsdiq edildikdən sonra Nazirliyin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin (bundan sonra – MEİS) "Pensiya" altsisteminə (bundan sonra – PAS) daxil edilir və ya bildirişlər PAS vasitəsilə göndərilir.

1.4. Bu Qaydada istifadə olunan anlayışlar Qanunla müəyyən edilən mənaları ifadə edir.

## 2. Əmək pensiyasının təyin edilməsi üçün müraciət

2.1. Qanunun 22-1.4-cü maddəsi nəzərə alınaraq, dövlət sosial sığorta sistemində sığortaolunanın fərdi hesabının (bundan sonra – fərdi hesab) sığorta hissəsində 2006-cı il yanvarın 1-dən 2018-ci il iyulun 1-dək qeydə alınmış pensiya kapitalı olan sığortaolunanlara, həmçinin hərbi qulluqçulara və Qanunun 3.3-cü maddəsinə uyğun olaraq pensiya təminatı sahəsində onlara bərabər tutulan xüsusi rütbəli şəxslərə əmək pensiyasının təyin edilməsi avtomatlaşdırılmış qaydada onlar tərəfindən müraciət edilmədən, bu Qaydanın 8.2-ci bəndində göstərilən elektron informasiya sistemlərindən və ya ehtiyatlarından əldə olunan, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nda nəzərdə tutulmuş dövlət orqanları tərəfindən təqdim edilən məlumatlar əsasında aparılır. Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (bundan sonra – Fond) aidiyyəti struktur bölməsinin əmək pensiyasının təyin edilməsi haqqında qərarı barədə həmin şəxslərə poçt vasitəsilə məlumat və yaxud MEİS-də olan əlaqə vasitələrindən birinə (elektron poçt ünvanı və ya sms vasitəsilə) bildiriş göndərilir.

2.2. Bu Qaydanın 2.1-ci bəndində göstərilən şəxslər istisna olmaqla, əmək pensiyasının təyin edilməsi, Qanunun 31.1-ci maddəsinə əsasən əmək pensiyası hüququ olan şəxslərin bu hüququn yarandığı tarixdən sonra Fondun aidiyyəti struktur bölməsinə və ya Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzlərinə (bundan sonra – "DOST" mərkəzi) bu Qaydanın 1 nömrəli Əlavəsi ilə müəyyən edilmiş formada yazılı, o cümlədən elektron müraciəti əsasında aparılır və bu Qaydanın 2.9-cu bəndi nəzərə alınmaqla aşağıdakı sənədlərin (bu Qaydanın 4-cü hissəsi nəzərə alınmaqla) təqdim edilməsi tələb olunur:

2.2.1. Qanunun 22-1-ci maddəsinə uyğun olaraq əmək pensiyası təyin edilən sığortaolunanlar və Qanunun 9.5-ci maddəsində nəzərdə tutulmuş şəxslər istisna olmaqla, əmək pensiyası təyin edilən şəxsin şəxsiyyət vəsiqəsinin surəti (əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə münasibətdə isə Azərbaycan Respublikasının ərazisində daimi yaşayış hüququ verən icazə vəsiqəsinin surəti);

2.2.2. Qanunun 8.2-ci maddəsinin tətbiqi zamanı bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulanlara əlavə olaraq:

1. uşaqların doğum haqqında şəhadətnamələrinin və şəxsiyyət vəsiqələrinin surəti;

2. uşağın 18 yaşınadək sağlamlıq imkanlarının məhdudluğunun müəyyən edilməsi barədə tibbi-sosial ekspertiza müayinəsinin nəticəsi barədə çıxarış;

3. ananın sağlamlıq imkanları məhdud uşağı 8 yaşınadək tərbiyə etməsi barədə yerli icra hakimiyyəti başçısının müvafiq inzibati ərazi dairəsi üzrə və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin arayışı;

2.2.3. Qanunun 8.3-cü maddəsinin tətbiqi zamanı bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulanlara əlavə olaraq:

1. uşaqların doğum haqqında şəhadətnamələrinin və şəxsiyyət vəsiqələrinin surəti;

2. atanın (qəyyum kişinin) 5 və daha çox uşağı 8 yaşınadək tərbiyə etməsi barədə yerli icra hakimiyyəti başçısının müvafiq inzibati ərazi dairəsi üzrə və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin arayışı;

3. ananın ölüm haqqında şəhadətnaməsinin və ya analıq hüququndan məhrum edilməsi barədə məhkəmə qərarının surəti;

4. atanın növbəti nikaha daxil olmaması barədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbəsinin arayışı;

2.2.4. əlilliyə görə əmək pensiyası təyin edilməsi üçün bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulanlara əlavə olaraq şəxsin əlilliyini müəyyən edən tibbi-sosial ekspertiza müayinəsinin nəticəsi barədə çıxarış;

2.2.5. əmək pensiyasına qulluq stajına görə əlavələrin hesablanması üçün (hərbi qulluqçular və xüsusi rütbəli şəxslər, habelə onların ailə üzvləri istisna olmaqla) bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulanlara əlavə olaraq müvafiq dövlət orqanının təqdim etdiyi forması bu Qaydaya 3 nömrəli Əlavə ilə müəyyən edilmiş arayış;

2.2.6. ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilməsi üçün bu Qaydanın 2.2.1-ci yarımbəndində nəzərdə tutulanlara əlavə olaraq:

1. vəfat etmiş şəxsin ailə tərkibi haqqında yerli icra hakimiyyəti başçısının inzibati ərazi dairəsi üzrə və ya sahə inzibati ərazi dairəsi üzrə nümayəndəsinin arayışı;

2. vəfat etmiş ailə başçısının övladının (övladlarının) doğum

haqqında şəhadətnaməsinin surəti;

3. ailə başçısının ölüm haqqında şəhadətnaməsinin (və ya xəbərsiz itkin düşməsi, yaxud ölmüş elan edilməsi haqqında məhkəmə qərarının) surəti;

4. ailə başçısının 23 yaşınadək övladının (övladlarının) əyani təhsil alması barədə təhsil müəssisəsinin arayışı;

5. vəfat etmiş ailə başçısının 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı övladının (övladlarının) əlilliyinin, habelə atasının, anasının, arvadının, ərinin I və ya II dərəcə əlilliyinin olması barədə tibbi-sosial ekspertiza müayinəsinin nəticələri barədə çıxarış;

6. ailə başçısının dul arvadının (ərinin) yeni nikaha daxil olmaması barədə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbəsinin arayışı;

2.2.7. qulluq stajına görə əlavələrin hesablanması üçün hərbi qulluqçulara və xüsusi rütbəli şəxslərə yaşa görə, habelə onların ailə üzvlərinə ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları"nın təsdiq edilməsi haqqında" 2007-ci il 23 avqust tarixli 135 nömrəli Qərarı ilə müəyyən edilmiş qaydada və formada həmin şəxslərin xidmət etdikləri dövlət orqanlarının təqdim etdiyi məlumat vərəqi.

2.3. Əmək pensiyasının təyin olunması üçün bu Qaydanın 2.2-ci bəndinə əsasən təqdim edilən sənədlər Fondun aidiyyəti struktur bölməsi və ya "DOST" mərkəzi tərəfindən 1 (bir) iş günü ərzində PAS-a daxil edilir.

2.4. Müəyyən müddətə və ömürlük azadlıqdan məhrum etmə növündə cəzaya məhkum edilmiş şəxslərin əmək pensiyasının təyin olunması üçün müraciətlərinə Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 90.4-cü maddəsinə uyğun olaraq MEİS-ə ötürülən aşağıdakı məlumatlar əsasında baxılır:

2.4.1. məhkəmə qərarının qanuni qüvvəyə mindiyi tarix;

2.4.2. cəzaçəkmə müddəti;

2.4.3. cəzaçəkmə müddətinin başlandığı və bitəcəyi tarix;

2.4.4. cəza çəkilmə yeri;

2.4.5. məhkumun şəxsi hesabının nömrəsi;

2.4.6. məhkumun yerdəyişmələri haqqında məlumat.

2.5. Hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin ailə başçısını itirməyə görə əmək pensiyası almaq hüququ olan ailə üzvlərinin əmək pensiyasının təyin edilməsi barədə yazılı, o cümlədən elektron müraciətlərinə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 27 avqust tarixli 135 nömrəli Qərarı ilə təsdiq edilmiş “Təminat xərcliyinin hesablanması, hərbi xidmət müddəti və təminat xərcliyi barədə məlumatların təqdim olunması Qaydaları”na uyğun olaraq həmin şəxslərin xidmət etdikləri dövlət orqanlarının təqdim etdiyi məlumat vərəqi əsasında baxılır.

2.6. Azərbaycan Respublikasının hüdudlarından kənarda daimi yaşayan Azərbaycan Respublikası vətəndaşlarının əmək pensiyasının təyin edilməsi üçün yazılı, o cümlədən elektron müraciətləri onların konsulluq uçotunda olduqları Azərbaycan Respublikasının diplomatik nümayəndəlikləri və ya konsulluqları vasitəsilə təqdim edilir.

2.7. Pensiya təminatı sahəsində Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə nəzərdə tutulmuş hallarda əmək pensiyasının müəyyən edilməsi ilə bağlı müraciətlər həmin müqavilələrlə müəyyən olunmuş səlahiyyətli qurumlar tərəfindən təqdim edilir.

2.8. Fəaliyyət qabiliyyəti olmayan şəxslərə münasibətdə bu Qaydanın 2.2-ci bəndinə uyğun olaraq müraciət onun qanuni nümayəndəsi tərəfindən təqdim olunur. Bu zaman bu Qaydanın 2.2-ci bəndində göstərilən sənədlərə əlavə olaraq nümayəndənin səlahiyyətlərini təsdiq edən sənəd də əlavə olunur.

2.9. “İnzibati icraat haqqında” Azərbaycan Respublikası Qanununun 30.5-ci maddəsinə əsasən aidiyyəti dövlət orqanlarının (qurumlarının) informasiya sistemlərindən və ya ehtiyatlarından bu Qaydanın 2.2-ci bəndində qeyd olunan sənədlərdəki məlumatları əldə etmək mümkün olduqda, həmin sənədlərin təqdim edilməsi tələb olunmur.

## 3. Müraciətə baxılması və onun nəticəsi barədə məlumatlandırma

3.1. Əmək pensiyasının təyin edilməsi, yenidən hesablanması və bir növdən başqa növə keçirilməsi ilə bağlı müraciətə Fondun aidiyyəti struktur bölməsində baxılır.

3.2. Əmək pensiyasının təyin edilməsi, yenidən hesablanması və bir növdən başqa növə keçirilməsi üçün təqdim olunmuş

sənədlərdə çatışmazlıqlar aşkar edildikdə, müraciətdə qeyd olunmuş əlaqə vasitələrindən birinə onun daxil olduğu tarixdən 5 (beş) iş günü müddətində bu Qaydaya 4 nömrəli Əlavə ilə müəyyən edilmiş formada həmin çatışmazlıqların aradan qaldırılması müddəti göstərilməklə bu Qaydaya uyğun olaraq bu barədə bildiriş göndərilir. Bu zaman pensiyanın təyin edilməsi ilə bağlı müddət axımı dayanır. Çatışmazlıqlar aradan qaldırıldıqdan sonra müraciətdə qeyd olunmuş ünvana poçt vasitəsilə, yaxud MEİS-dən olan əlaqə vasitələrindən (elektron poçt ünvanı və ya sms vasitəsilə) birinə məlumat göndərilməsi şərtilə müraciət edən şəxsin əmək pensiyasının təyin edilməsi, yenidən hesablanması və bir növdən başqa növə keçirilməsi ilə bağlı müraciətinə yenidən baxılır, bu Qaydanın 5-ci hissəsinə uyğun olaraq hüququnun yarandığı tarixdən pensiya təyin edilir.

3.3. Təqdim edilmiş sənədlərə və bu Qaydanın 8.2-ci bəndində göstərilən elektron informasiya sistemlərindən və ya ehtiyatlarından əldə olunan məlumatlara əsasən:

3.3.1. şəxsə əmək pensiyası təyin olunmasından imtinaya əsas olmadıqda, sənədlər Fondun aidiyyəti struktur bölməsinə və ya “DOST” mərkəzlərinə daxil olduğu tarixdən 10 (on) gün müddətində Fondun aidiyyəti struktur bölməsi tərəfindən əmək pensiyasının təyin edilməsi haqqında bu Qaydaya 5 nömrəli Əlavə ilə müəyyən edilmiş formada qərar qəbul edilir və bu barədə şəxsin müraciətində qeyd olunmuş ünvanına poçt vasitəsilə, yaxud MEİS-də olan əlaqə vasitələrindən birinə (elektron poçt ünvanı və ya sms vasitəsilə) bu Qaydaya 12 nömrəli Əlavə ilə müəyyən edilmiş formada bildiriş göndərilir;

3.3.2. müraciət edən şəxsin əmək pensiyası hüququ olmadığı hallarda əmək pensiyasının təyin edilməsindən imtina olunması barədə 5 (beş) gün müddətində Fondun aidiyyəti struktur bölməsi imtinanın səbəbləri göstərilməklə bu Qaydaya 11 nömrəli Əlavə ilə müəyyən edilmiş formada qərar qəbul edir və bu barədə müraciətdə qeyd olunmuş əlaqə vasitələrindən birinə bu Qaydaya 6 nömrəli Əlavə ilə müəyyən edilmiş formada bildiriş göndərir.

## 4. Sosial sığorta stajının hesablanması

4.1. Əmək pensiyasının təyin edilməsi zamanı nəzərə alınan sosial sığorta stajı aşağıdakılara əsasən müəyyən edilir:

4.1.1. 2006-cı il yanvarın 1-dək olan dövr üzrə:

1. “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanununa və bu sahədə münasibətləri tənzimləyən digər normativ hüquqi aktlara uyğun olaraq məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi şərtilə mülkiyyət formasından, əmək fəaliyyətinin xüsusiyyətlərindən və müddətindən asılı olmayaraq, müəssisə, idarə və təşkilatlarda əmək müqaviləsi (kontraktı) əsasında işləyənlərin iş müddəti əmək fəaliyyəti barədə sənədlərə (əmək kitabçası, o olmadıqda işəgötürənin arayışı və ya dövlət arxivinin arayışı), həmin sənədlərin mötəbərliyinə əsaslı şübhələr olduğu hallarda Fond tərəfindən işəgötürəndə, dövlət arxivində və Fondda saxlanılan məlumatların üzləşdirilməsi nəticəsində tərtib olunan akta əsasən;

2. seçkili və ya təyinatlı vəzifə tutan şəxslərin fəaliyyət müddəti barədə əmək kitabçasında qeydlər olmadıqda, həmin şəxslərin vəzifəyə seçildiyi və ya təyin edildiyi orqanın arayışına əsasən;

3. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin fəaliyyət müddəti məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi haqqında mədaxil qəbzlərinə və ya bu Qaydaya 8 nömrəli Əlavəyə əsasən;

4. əyani təhsil dövrünü təsdiq edən müvafiq sənədə (təhsil müəssisəsinin arayışı, arxiv arayışı və s.) əsasən;

5. kolxozlarda əmək fəaliyyəti dövrünü təsdiq edən müvafiq sənədə (kolxozçunun əmək kitabçası (müəyyən edilmiş əmək iştirakı minimumunun yerinə yetirilməsi barədə qeydin olması şərtilə) əsasən;

6. işləməyən ananın körpə uşaqlarına qulluq etdiyi və ya uşağa qulluğa görə qismən ödənişli sosial məzuniyyət dövrləri uşaqların doğum haqqında şəhadətnamələrinə əsasən;

4.1.2. 2006-cı il yanvarın 1-dən sonrakı dövr üzrə – dövlət sosial sığorta sistemində fərdi uçot (bundan sonra – fərdi uçot) məlumatlarına əsasən;

4.1.3. işçinin işəgötürən tərəfindən hesablanmış əməkhaqqına məcburi dövlət sosial sığorta haqqı ödənilən iş müddəti – fərdi uçot məlumatlarına əsasən;

4.1.4. yaradıcılıq ittifaqlarının və peşəkar birliklərin üzvlərinin yaradıcılıq fəaliyyətinə başladıqdan sonrakı dövr – 1991-ci il yanvarın 1-nə olan dövr üzrə əmək kitabçasına, əmək kitabçasının mötəbərliyinə əsaslı şübhələr olduğu hallarda işəgötürəndə və ya dövlət arxivində saxlanılan məlumatların müvafiq olaraq işəgötürən və ya dövlət arxivi tərəfindən təsdiq edilmiş surətləri də əlavə edilməklə Fondun və işəgötürənin və ya dövlət arxivinin nümayəndələrinin

iştirakı ilə tərtib olunan akta əsasən, 1991-ci il yanvarın 1-dən sonrakı dövr üzrə isə məcburi dövlət sosial sığorta haqlarının ödənilməsini təsdiq edən sənədlərə əsasən;

4.1.5. müddətli həqiqi hərbi (alternativ) xidmət (1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində müddətli həqiqi hərbi xidmət dövrü daxil olmaqla) və Azərbaycan Respublikasının Müdafiə Nazirliyində qeydiyyatdan keçmiş özünümüdafiə dəstələrində və birləşmələrində olduğu müddət, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti, Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti, Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və hərbi xidmət nəzərdə tutulmuş digər dövlət orqanlarında (dövlət orqanlarının strukturuna daxil olan qurumlarda) xidmət müddəti – hərbi biletə və ya Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, yaxud yuxarıda qeyd olunan orqanların müvafiq arayışına əsasən;

4.1.6. I dərəcə əlilliyi olan şəxsə qulluqetmə müddəti üzrə:

1. qulluqetməyə dair qulluqolunanın (onun qanuni nümayəndəsinin) və qulluqedənin notariat fəaliyyətini həyata keçirən subyektlərin təsdiq etdiyi ərizələrinə əsasən;

2. "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanına uyğun olaraq, müvafiq təqaüdün ödənilməsinə dair MEİS-in "Sosial ödənişlər" altsisteminin məlumatına əsasən;

3. qulluqolunan vəfat etmişdirsə, bu yarımbəndin 1-ci və 2-ci abzaslarında müəyyən edilən sənədlər olmadıqda – məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən;

4.1.7. sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağa qulluqetmə müddəti üzrə:

1. qanuni nümayəndələrə münasibətdə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşağın doğum haqqında şəhadətnaməsinə, övladlığa götürənlərə münasibətdə övladlığa götürmə barədə

məhkəmənin qanuni qüvvəyə minmiş qərarına, qəyyumlara və himayəçilərə münasibətdə isə qəyyumluq və ya himayəçiliyin müəyyən edilməsi barədə müvafiq qərara əsasən;

2. "I dərəcə əlilliyi olan şəxslərə və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlara qulluq edən şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdü"nün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 aprel tarixli 643 nömrəli Fərmanına uyğun olaraq, müvafiq təqaüdünün ödənilməsinə dair MEİS-in "Sosial ödənişlər" altsisteminin məlumatına əsasən;

4.1.8. ahıllara qulluqetmə müddəti üzrə:

1. patronajın təyin edilməsi barədə qərara əsasən;

2. qulluq etməyə dair qulluqolunanın (fəaliyyət qabiliyyəti olmayan I dərəcə əlilliyi olan şəxslər istisna olmaqla) və qulluqedənin notariat fəaliyyətini həyata keçirən subyektlərin təsdiq etdiyi ərizələrinə əsasən;

3. qulluqolunan vəfat etmişdirsə, bu yarımbəndin 1-ci və 2-ci abzasları ilə müəyyən edilən sənədlər olmadıqda, məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən;

4.1.9. işsizlikdən sığorta ödənişinin verildiyi müddət, yaxud işsizin peşə hazırlığı keçdiyi müddət – MEİS-in "Məşğulluq" altsistemində həmin müddətləri təsdiq edən məlumatlara və ya Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin müvafiq struktur bölməsinin verdiyi arayışa əsasən;

4.1.10. istehsalatda bədbəxt hadisələr və ya peşə xəstəliyi nəticəsində işləməyən I və II dərəcə əlilliyi olan şəxslərin yaşa görə əmək pensiyasının təyin edilməsi üçün yaş həddinə çatanadək pensiyada olduqları müddət – PAS-da mövcud olan həmin müddətləri təsdiq edən məlumatlara və ya pensiya sənədlərinə əsasən;

4.1.11. zabit heyəti, gizir, miçman və müddətdən artıq qulluqda olan hərbi qulluqçuların arvadlarının öz ixtisası üzrə işə düzəlmək imkanı olmadığı yerlərdə ərləri ilə yaşadıqları müddət – işə düzəlmə ilə bağlı müraciətə yerli icra hakimiyyətinin, Nazirliyin tabeliyində Dövlət Məşğulluq Agentliyinin müvafiq struktur bölməsinin və ya hərbi hissə komandirlərinin işə düzəlmənin mümkün olmamasına dair Fondun aidiyyəti struktur bölməsinin müraciətinə verdikləri rəsmi cavaba əsasən;

4.1.12. şəxsin qanunsuz tutulma, həbsdə olma və cəzaçəkmə müddətləri, eləcə də qanunsuz olaraq işdən (vəzifədən)

kənarlaşdırılması ilə əlaqədar işləmədiyi müddət – qanunsuz tutulmanı, həbsdə olmanı, cəzaçəkməni və ya işdən kənarlaşdırılmanı təsdiq edən məhkəmənin qanuni qüvvəyə minmiş qərarına əsasən;

4.1.13. əmək qabiliyyətinin müvəqqəti itirilməsi müddəti ərzində həm işəgötürənin vəsaiti, həm də məcburi dövlət sosial sığorta vəsaiti hesabına müavinət alındığı müddət – MEİS-in “Sosial ödənişlər” altsistemində mövcud olan həmin müddətləri təsdiq edən məlumatlara və ya işəgötürənin arayışına (əmək qabiliyyətinin müvəqqəti itirilməsini təsdiq edən xəstəlik vərəqələrinin surətləri əlavə olunmaqla) əsasən;

4.1.14. mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq sahəsi olan şəxslərin həmin torpaq sahəsinə görə “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə müəyyən olunmuş qaydada məcburi dövlət sosial sığorta haqları ödədiyi müddət – 2006-cı il yanvarın 1-dək məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi haqqında mədaxil qəbzlərinə və ya bu Qaydaya 8 nömrəli Əlavəyə əsasən, 2006-cı il yanvarın 1-dən sonrakı dövr üzrə isə fərdi uçot məlumatlarına əsasən;

4.1.15. hərbi xidmət müddəti (1992-ci il yanvarın 1-dək keçmiş SSRİ-nin ərazisində hərbi xidmət dövrü daxil olmaqla) – hərbi biletə və ya Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, yaxud hərbi xidmətin keçildiyi dövlət orqanının arayışına əsasən;

4.1.16. şəxsin mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işlədiyi müddət – bu Qaydanın 4.2-ci bəndinə uyğun olaraq, işəgötürənin forması bu Qaydaya 7 nömrəli Əlavə ilə müəyyən olunan arayışına əsasən;

4.1.17. hərbi qulluqçulara və pensiya təminatı sahəsində qanunla onlara bərabər tutulan xüsusi rütbəli şəxslərə münasibətdə xidmət müddəti – onların xidmət (qulluq) keçdiyi sonuncu dövlət orqanının təqdim etdiyi məlumat vərəqəsinə əsasən;

4.1.18. döyüş əməliyyatları dövründə döyüşən ordunun tərkibində xidmət və muzdla iş dövrü, eləcə də Azərbaycan Respublikasının Müdafiə Nazirliyində qeydiyyatdan keçmiş özünümüdafiə dəstələrində və birləşmələrində olma müddəti – həmin Nazirliyin arayışına əsasən;

4.1.19. əməliyyat-axtarış fəaliyyəti subyektləri ilə əməkdaşlıq edən şəxslərin cinayətkar qruplara və ya kriminogen obyektlərə daxil

edilməsi ilə əlaqədar vəzifələrinin yerinə yetirilməsi müddəti – həmin subyektlərin arayışına əsasən;

4.1.20. yeraltı işlərdə, incəsənətin xüsusi sahələrində, əmək şəraiti xüsusilə zərərli və ağır olan işlərdə iş müddəti – bu Qaydanın 4.1.1-ci yarımbəndində nəzərdə tutulmuş sənədlərə və şəxsin güzəştli şərtlə əmək pensiyası hüququ verən işdə işləməsinə dair işəgötürənin forması bu Qaydaya 2 nömrəli Əlavə ilə müəyyən edilmiş arayışına əsasən.

4.2. Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sosial sığorta stajlarının hesablanması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 16 oktyabr tarixli 231 nömrəli Qərarı ilə təsdiq edilmiş "Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyənlərin sığorta stajlarının hesablanması Qaydaları" ilə müəyyən edilir.

4.3. Hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin xidmət müddətinin (qulluq illərinin) hesablanması onların xidmət (qulluq) etdiyi orqanlara aid hissədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Zabit heyətinə mənsub şəxslərə, gizirlərə, miçmanlara, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularına, daxili işlər, ədliyyə, gömrük, miqrasiya, fövqəladə hallar orqanlarının rəis və sıravi heyətinə mənsub şəxslərə və onların ailələrinə pensiya təyin edilib verilməsi üçün uzun müddət xidmət vaxtının hesablanması qaydası haqqında" 1992-ci il 23 noyabr tarixli 631 nömrəli, "Daxili işlər orqanlarının əməkdaşlarına fasiləsiz xidmət illərinə görə haqqın ödənilməsi üçün xidmət illərinin hesablanması Qaydasının təsdiq edilməsi barədə" 2004-cü il 22 iyul tarixli 98 nömrəli, "Yüksək ixtisaslı mütəxəssislər sırasından seçilərək kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti subyektlərinə hərbi xidmətə qəbul olunmuş hərbi qulluqçuların hərbi xidmətə qəbul olunana qədərki əmək stajının pensiya təyin edilməsi və xidmət illərinə görə əlavə faizin ödənilməsi üçün onların xidmət illərinə hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2005-ci il 1 iyul tarixli 124 nömrəli, "Gömrük orqanlarının vəzifəli şəxslərinin fasiləsiz xidmət illərinin və bununla əlaqədar onlara verilən əlavələrin hesablanması Qaydası"nın təsdiq edilməsi haqqında" 2006-cı il 9 yanvar tarixli 4 nömrəli, "Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 31 oktyabr tarixli 168 nömrəli qərarlarına uyğun olaraq həyata keçirilir.

## 5. Əmək pensiyalarının təyin edilməsi və hesablanması

5.1. Yaşa görə əmək pensiyası Qanunun II fəslinə, əlilliyə görə əmək pensiyası Qanunun III fəslinə, ailə başçısını itirməyə görə əmək pensiyası isə Qanunun IV fəslinə uyğun olaraq təyin edilir.

5.2. Qanunun 7-ci maddəsində nəzərdə tutulmuş kişilərin yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2021-ci il iyulun 1-dək, qadınların yaş həddi 2017-ci il iyulun 1-dən başlayaraq 2027-ci il iyulun 1-dək hər il altı ay artırılmaqla aşağıdakı qaydada müəyyənləşdirilir:

| Dövr | Kişilərin yaş həddi | Qadınların yaş həddi |
|---|---|---|
| 1 iyul 2017 - 30 iyun 2018 | 63 il 6 ay | 60 il 6 ay |
| 1 iyul 2018 - 30 iyun 2019 | 64 il | 61 il |
| 1 iyul 2019 - 30 iyun 2020 | 64 il 6 ay | 61 il 6 ay |
| 1 iyul 2020 - 30 iyun 2021 | 65 il | 62 il |
| 1 iyul 2021 - 30 iyun 2022 | 65 il | 62 il 6 ay |
| 1 iyul 2022 - 30 iyun 2023 | 65 il | 63 il |
| 1 iyul 2023 - 30 iyun 2024 | 65 il | 63 il 6 ay |
| 1 iyul 2024 - 30 iyun 2025 | 65 il | 64 il |
| 1 iyul 2025 - 30 iyun 2026 | 65 il | 64 il 6 ay |
| 1 iyul 2026-cı il və sonrakı | 65 il | 65 il |

5.3. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 42-ci maddəsinin 3-cü hissəsi nəzərə alınaraq, əlilliyə görə əmək pensiyasının təyin edilməsi zamanı əmək qabiliyyətli yaş dövrü şəxsin 15 yaşından etibarən hesablanır.

5.4. Qanunun 14.4-cü maddəsində nəzərdə tutulan hal istisna olmaqla, sosial müavinət alan şəxslərin əmək pensiyası hüququ yarandıqda, əmək pensiyası şəxsin əmək pensiyası hüququ yarandığı tarixdən hesablanmaqla Qanunun 32.1-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla təyin edilir.

5.5. Qanunun 22-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla avtomatlaşdırılmış qaydada təyin edilən əmək pensiyaları istisna olmaqla, əmək pensiyalarının təyin edilməsi bu Qaydaya 5 nömrəli Əlavəyə uyğun formada qəbul edilən qərarla rəsmiləşdirilir.

5.6. Əmək pensiyalarına əlavələr Qanunun 20-ci maddəsinə uyğun olaraq əmək pensiyasına qulluq stajına görə əlavələrdən ibarətdir.

5.7. Əmək pensiyasına qulluq stajına görə əlavələrin hesablanması zamanı əsas götürülən əməkhaqqı, dövlət məvacibi, yaxud təminat xərcliyi müəyyən edilərkən şəxsin yalnız əmək və ya xidməti vəzifələrinin yerinə yetirməsinə görə almış olduğu ödənişlər və onlara sonrakı artımlar nəzərə alınır.

5.8. 2020-ci il yanvarın 1-dən dövlət orqanının əsasında Azərbaycan Respublikasının Prezidenti tərəfindən publik hüquqi şəxsin yaradılması nəticəsində dövlət qulluğuna xitam verildiyi tarixə dövlət qulluqçusu kimi əmək pensiyası hüququnun əldə edilməsi üçün tələb edilən 15 il qulluq stajının toplanmasına və Qanunun 7-ci maddəsində nəzərdə tutulan əmək pensiyası yaşına çatmasına ən çoxu 2 (iki) il qalan şəxslərin dövlət qulluqçusu kimi pensiya hüququ təmin edilir.

5.9. Əmək pensiyaları onu almaq hüququ yarandığı gündən, lakin Qanunun qüvvəyə mindiyi gündən tez olmamaqla və müraciət edilən tarixdən əvvəlki ən çoxu üç il üçün ödənilməklə, Qanunun 32-ci maddəsində müəyyən edilmiş müddətlərə təyin edilir.

## 6. Əmək pensiyalarının yenidən hesablanması və bir növdən başqa növə keçirilməsi

6.1. Əmək pensiyaları aşağıdakı hallarda yenidən hesablanır:

6.1.1. Qanunun 29.1-ci maddəsinə uyğun olaraq əmək pensiyasının sığorta hissəsi artırıldıqda;

6.1.2. Qanunun 37.3.1-ci və 37.3.2-ci maddələrində nəzərdə tutulmuş hallarda;

6.1.3. Qanunun 20-ci maddəsində nəzərdə tutulmuş şəxslərə münasibətdə əməkhaqqı, dövlət məvacibi və təminat xərcliyi artdıqda;

6.1.4. əmək pensiyaçısının müraciəti, yaxud Fondun fəaliyyət istiqamətlərinə uyğun olaraq apardığı yoxlamalar nəticəsində əmək pensiyasının məbləğinin düzgün hesablanmadığı aşkar edildikdə;

6.1.5. Qanunun 29.2-ci maddəsində nəzərdə tutulmuş hallarda;

6.1.6. məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında.

6.2. Qanunun 20-ci maddəsinə əsasən təyin edilmiş əmək pensiyasının məbləği pensiyaçının fərdi hesabının sığorta hissəsində qeydə alınmış pensiya kapitalına əsasən yenidən hesablanarkən

əmək pensiyasına qulluq stajına görə əlavənin məbləği sığorta hissəsinin artan məbləği qədər, Qanunun 37.3.4-cü maddəsinin birinci cümləsində nəzərdə tutulmuş hallarda həmin əlavənin ödənilən hissəsi isə əmək pensiyasının sığorta hissəsinin artan məbləğinin 50 faizi qədər azalır.

6.3. Avtomatlaşdırılmış qaydada təyin olunmuş əmək pensiyalarının yenidən hesablanması zamanı Qanunun 22-1-ci maddəsinin tələbləri nəzərə alınır.

6.4. Əmək pensiyasının bir növündən başqa növünə keçirilmə, Qanunun 34-cü maddəsinin şərtləri nəzərə alınmaqla yeni növ pensiya təyinatı ərizənin qeydiyyata alındığı tarixdən sonrakı ayın 1-dən aparılır.

6.5. Hərbi qulluqçuların və pensiya təminatı sahəsində qanunla onlara bərabər tutulan xüsusi rütbəli şəxslərin əmək pensiyalarının bu Qaydanın 6.1.3-6.1.5-ci yarımbəndlərində nəzərdə tutulmuş hallarda yenidən hesablanması bu Qaydaya 10 nömrəli Əlavə ilə müəyyən olunmuş formada qəbul olunan qərarla rəsmiləşdirilir.

## 7. Əmək pensiyalarının ödənilməsi

7.1. Əmək pensiyaları Fondun müvafiq banklarla bağladığı müqavilələr əsasında plastik kartlar vasitəsilə yalnız nağdsız qaydada ödənilir.

7.2. Əmək pensiyasının ödənilməsi üçün müvafiq banka sifariş verilmiş plastik kartın bankdan alınmasına dair pensiyaçıya bu Qaydaya 9 nömrəli Əlavə ilə müəyyən edilmiş formada bildiriş müraciətdəki əlaqə vasitələrindən birinə göndərilir.

7.3. Bank plastik kartını bankdan bu Qaydanın 7.1-ci bəndində nəzərdə tutulmuş müqavilə ilə müəyyən edilən müddətdə götürməyən pensiyaçılar barədə məlumatı Fonda təqdim edir.

7.4.“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən əmək pensiyasında baş verən artımlara görə keçmiş dövr üzrə alınmamış vəsait həmin artımın qüvvəyə mindiyi tarixdən hesablanmaqla ödənilir.

7.5. Artıq ödənilmiş əmək pensiyası və əmək pensiyasına əlavənin məbləği Qanunun 39-cu maddəsinə əsasən pensiyaçının yazılı razılığına əsasən, yaxud məhkəmə qaydasında tutulur.

## 8. Əmək pensiyasının və əmək pensiyasına əlavələrin ödənilməsinin dayandırılması

8.1. Əmək pensiyasının və əmək pensiyasına əlavələrin ödənilməsi Qanunun 37.8-ci maddəsi ilə müəyyən edilmiş hallar aşkar edildikdə dayandırılır.

8.2. Aşağıdakı elektron informasiya sistemlərində və ya ehtiyatlarında Qanunun 37.8-ci maddəsində nəzərdə tutulmuş hallara dair təsdiqedici sənədlər və ya məlumatlar mövcud olduqda, PAS tərəfindən əmək pensiyasının ödənilməsi avtomatik olaraq dayandırılır:

8.2.1. MEİS-də:

1. sosial müavinət alan şəxslər barədə məlumat;

2. əlilliyi olan şəxslər barədə məlumat;

3. əmək müqaviləsi bildirişi üzrə məlumat;

8.2.2. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin “Vətəndaşlıq vəziyyəti aktları” avtomatlaşdırılmış qeydiyyat informasiya sistemində:

1. əmək pensiyaçısının ölüm haqqında şəhadətnaməsi;

2. əmək pensiyaçısının dul arvadının (ərinin) yeni nikaha daxil olması haqqında şəhadətnamə;

8.2.3. Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzinin “Şagird-məzun” və “Tələbə-məzun” dövlət elektron məlumat sistemində və Azərbaycan Respublikasının Dövlət Qulluqçuları Reyestrində:

1. təhsil müəssisələrində əyani təhsil alan şəxslərin təhsil müəssisəsindən xaric edilməsi barədə məlumat;

2. dövlət qulluqçularının yenidən dövlət qulluğuna qəbul edilməsi barədə məlumat;

8.2.4. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində əmək pensiyaçısının Azərbaycan Respublikasının vətəndaşlığından çıxması barədə məlumat.

8.3. Əmək pensiyası ödənişinin dayandırılmasına səbəb olan hallar aradan qaldırıldıqda (Qanunun 37.8.1-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla), şəxs bu Qaydaya 1 nömrəli Əlavə ilə müəyyən edilmiş formada ərizə ilə müraciət edir, həmin ərizə PAS-a daxil edilməklə onun əmək pensiyası hüququna bu Qaydanın tələbləri nəzərə alınmaqla yenidən baxılır.

"Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na

**1 nömrəli Əlavə**

___________________________________________
(Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun aidiyyəti struktur bölməsinin və ya Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin "DOST" mərkəzinin adı)

_________________________ ünvanında yaşayan
_________________________ tərəfindən
(soyadı, adı, atasının adı)

**Ə R İ Z Ə**

Ərizəçinin telefon nömrəsi _____________________
Şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi ___________
Doğulduğu tarix və yer ________________________

Xahiş edirəm, mənə /qəyyumu/ himayəçisi olduğum şəxsə (şəxslərə) yaşa görə /əlilliyə görə / ailə başçısını itirməyə görə
(lazım olmayanların üstündən xətt çəkməli)
əmək pensiyası təyin edəsiniz./əmək pensiyasından (pensiyanın növü göstərilməklə) digər əmək pensiyası növünə (pensiyanın növü göstərilməklə) keçirəsiniz/təyin edilmiş əmək pensiyasını yenidən hesablayasınız/ (dayandırasınız).
(lazım olmayanların üstündən xətt çəkməli)

Hazırda işləyirəm / işləmirəm.
(lazım olmayanların üstündən xətt çəkməli)

Mənə məlumdur ki, qüvvədə olan "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən müxtəlif növ əmək pensiyası hüququ olan şəxs öz seçiminə əsasən yalnız bir növ pensiya ala bilər.

Əmək pensiyasının məbləğinin dəyişdirilməsinə təsir edəcək hallar barədə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fonduna məlumat verməyi öhdəmə götürürəm.

Tarix ______

İmza ______

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması,
yenidən hesablanması, bir növdən başqa növə
keçirilməsi və ödənilməsi Qaydası”na

**2 nömrəli Əlavə**

## Şəxsin güzəştli şərtlə əmək pensiyası hüququ verən işdə çalışmasına dair

## ARAYIŞ

Arayışı verən dövlət orqanının (qurumun), işlədiyi müəssisənin adı
________________________________________________________________

Arayış verilir ______________________________ ondan ötrü ki, o,
(adı, soyadı və atasının adı)

“Əmək pensiyaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, güzəştli şərtlə yaşa görə əmək pensiyası hüququ verən peşədə (vəzifədə) ________________________________________________
(iş yerinin, vəzifənin adı)
(vəzifəyə təyin edilmə və azad edilmə əmrlərinin (sərəncamlarının) nömrələri, işə başladığı və işdən çıxdığı tarixlər) tarixləri arasındakı dövr ərzində işləmişdir.

İşlədiyi vəzifə üzrə sosial sığorta (əmək) stajı_____________________
(il, ay, gün)
(illər, aylar və günlər üzrə təsdiq edilmiş cədvəl əlavə olunur) təşkil edir.

İşlədiyi vəzifənin güzəştli əmək pensiyası hüququna əsas olan xüsusiyyətləri_____________________________________________________
(vəzifə üzrə işin xüsusiyyətləri)
ibarət olmaqla, Azərbaycan Respublikası Nazirlər Kabinetinin____________ tarixli nömrəli Qərarı ilə təsdiq edilmiş Siyahının _________ bəndinə/(yarımbəndinə) və (və ya)_____________________vəzifə koduna uyğundur.
Arayışı verən dövlət orqanının (qurumun), işlədiyi müəssisənin səlahiyyətli şəxsinin vəzifəsi, adı, soyadı, atasının adı və imzası

**M.Y.**

**Qeyd.** Dövlət arxivində şəxsin güzəştli pensiya hüququ verən bir neçə iş yeri ilə bağlı məlumatlar bu əlavəyə uyğun formada ayrı-ayrı arayışlarla təqdim edilir.

"Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası"na

**3 nömrəli Əlavə**

**Əmək pensiyasına qulluq stajına görə əlavələrin hesablanması üçün**

**ARAYIŞ**

Arayışı verən dövlət orqanı ___________________________________________________

Arayış verilir ___________________________________________________ondan ötrü ki,
(adı, soyadı və atasının adı)

_____________________________________________________________
(işlədiyi dövlət orqanının adı və vəzifəsi)

____________________________________ tarixləri arasındakı işlədiyi dövr ərzində onun
(işə başladığı və çıxdığı tarix)

əməkhaqqı aşağıdakılardan ibarət olmaqla, ümumi məbləği ________________ manat təşkil etmişdir.

| Təqvim ayları | _____ il | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | vəzifə maaşı | Vəzifə maaşına əlavələr | | | | Mükafatlar | | Müavinətlər | | məzuniyyət pulu | son haqq-hesab, kompensasiya | digər | CƏMİ | Qeyd |
| | | qulluq stajına görə əlavə | ixtisas dərəcəsinə görə əlavə | hakimiyyət səlahiyyətlərinin icrasına görə əlavə | vəzifə maaşına digər əlavə | məbləğ | büdcə və ya büdcədənkənar, əməkhaqqının tərkib hissəsinin adı, faiz həcmi | məbləğ | büdcə və ya büdcədənkənar, əməkhaqqının tərkib hissəsinin adı, faiz həcmi | | | | | |
| yanvar | | | | | | | | | | | | | | |
| fevral | | | | | | | | | | | | | | |
| | _____ il | | | | | | | | | | | | | |
| yanvar | | | | | | | | | | | | | | |
| fevral | | | | | | | | | | | | | | |

**Arayışı verən orqanın səlahiyyətli vəzifəli şəxsinin vəzifəsi, adı, soyadı, atasının adı və imzası**

**Arayışı verən orqanın möhürü**

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması,
yenidən hesablanması, bir növdən başqa növə
keçirilməsi və ödənilməsi Qaydası”na

**4 nömrəli Əlavə**

## Əmək pensiyasının təyin olunması üçün çatışmayan sənədlər barədə

## BİLDİRİŞ

Hörmətli ________________________________________________
(soyadı, adı və atasının adı)

Əmək pensiyasının təyin olunması ilə bağlı “___”_______ 20__ il tarixli müraciətinizə zəruri sənədlər tam əlavə edilməmişdir. Aşağıdakı sənədlərin kağız daşıyıcıda və ya elektron qaydada təqdim edilməsi xahiş olunur:

1. ____________________________________________________
2. ____________________________________________________
3. ____________________________________________________

Ətraflı məlumat almaq üçün 142 çağrı mərkəzi ilə əlaqə saxlamağınız xahiş olunur.

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**5 nömrəli Əlavə**

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun**

______________________________________________

(Fondun struktur bölməsinin adı)

**Əmək pensiyasının təyin edilməsi haqqında**

**QƏRAR**

Tarix ________ № __________

Pensiya işi № _______

1. Pensiyaçı
1-1. Qanuni nümayəndəsi
2. SSN
3. Məlumat vərəqəsini təqdim edən* ______________________________
4. Qeydiyyatda olduğu rayon (şəhər) ____________________________
5. Əmək pensiyasının təyin olunması ilə bağlı müraciətin tarixi ___________
(gün, ay, il)
6. Əmək pensiyası hüququnun yarandığı tarix _________________________
(gün, ay, il)
7. “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun əsas götürüldüyü maddəsi ____________________________________________
8. Əmək pensiyasının növü _____
9. Əmək pensiyasının məbləği ______
9.1. sığorta hissəsi ________________
9.2 qulluq stajına görə əlavə_________
10. Əlavə məlumat
______________________________________________________________
______________________________________________________________

İcraçının və rəhbərin vəzifəsi, adı, soyadı, atasının adı və imzası

M.Y.

11. Ötən dövr üzrə hesablanmış əmək pensiyası məbləğləri

| Sıra №-si | Ötən dövr | | Məbləğ (manatla) |
|---|---|---|---|
| | başlanğıc tarixi | son tarix | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

İcraçının vəzifəsi, adı, soyadı, atasının adı və imzası:

* yalnız hərbi qulluqçulara və ya xüsusi rütbəli şəxslərə münasibətdə qeyd olunan hissədir.

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**6 nömrəli Əlavə**

**Əmək pensiyasının təyin olunmasından imtina edilməsi barədə**

**BİLDİRİŞ**

20 _____ il tarixli

Hörmətli_____________________________________________
(soyadı, adı və atasının adı)

Əmək pensiyasının təyin olunması ilə bağlı müraciətinizə baxılmış, ______________________________________________ səbəbindən imtina edilmişdir.

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**7 nömrəli Əlavə**

**Mülki aviasiya uçuş və uçuş-sınaq heyətində işləyən şəxsin sığorta stajı barədə**

**A R A Y I Ş**

Tarix ________ № _________

Verilir_______________________________________________________
(adı, soyadı və atasının adı)
ona görə ki, o “______” _____ il tarixindən “______” __________________il tarixinədək ________ il _______ ay ____ gün olmaqla, mülki aviasiya uçuş və uçuş-sınaq heyətində sosial sığorta stajına malikdir.

Əsas___________________________________________________________

1. İşəgötürən____________________________________________________
(müəssisənin adı, VÖEN, vəzifəsi, adı, soyadı və atasının adı)

2. Aviasiya İşçiləri Həmkarlar
İttifaqı Respublika Komitəsinin rəhbəri
________________________________
(adı, soyadı və atasının adı)

M.Y.

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**8 nömrəli Əlavə**

**Hüquqi şəxs yaratmadan (fərdi qaydada) sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin, mülkiyyətindəki kənd təsərrüfatına yararlı torpaqlardan istifadə edən şəxslərin məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi barədə**

**A R A Y I Ş**

Tarix __________ №___________

Verilir__________________________________________________
(soyadı, adı və atasının adı)

ona görə ki, ona 1992-ci il 1 yanvar tarixindən 2006-cı il 1 yanvar tarixinədək ________il _______ ay ______ gün olmaqla, “Sosial sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu ilə və digər normativ hüquqi aktlarla müəyyən edilmiş qaydada məcburi dövlət sosial sığorta haqqı ödənilmişdir.

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun struktur bölməsinin rəhbərinin vəzifəsi, adı, soyadı, atasının adı ______ _________________

M.Y.

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması,
yenidən hesablanması, bir növdən başqa növə
keçirilməsi və ödənilməsi Qaydası”na

**9 nömrəli Əlavə**

## Plastik kartın alınmasına dair

## BİLDİRİŞ

Hörmətli ______________________________________________________
(soyadı, adı və atasının adı)

Təyin olunmuş əmək pensiyasının ödənilməsi üçün plastik kartı şəxsiyyət vəsiqənizi təqdim etməklə _______________ istənilən filiallarından
(bankın adı)
______________ il tarixindən sonra ala bilərsiniz.

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**10 nömrəli Əlavə**

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun ______________________________________**

(Fondun struktur bölməsinin adı)

Hərbi qulluqçuların və xüsusi rütbəli şəxslərin əmək pensiyasının yenidən hesablanması haqqında

**QƏRAR**

Tarix ________ № ____________

1. Pensiya işi № _________________________
2. Əmək pensiyasının növü _________________
3. İlk pensiyanı təyin edən orqan / struktur bölməsi ____________________
4. Pensiyaçının adı, soyadı, atasının adı ____________________________
5. Qəyyumun (himayəçinin) adı, soyadı, atasının adı ___________________
6. Əmək pensiyasının təyin olunduğu tarix ___________________________
7. Məlumat vərəqəsini təqdim edən ________________________________
8. Qeydiyyatda olduğu rayon (şəhər) ______________________________
9. Hazırkı əmək pensiyası məbləği _______________ manat _____ qəpik.
10. Yenidən hesablamanın səbəbi_________________________________
11. Əmək pensiyasının yenidən hesablanması zamanı təminat xərcliyindəki dəyişikliklər:

| **Sıra №-si** | **Təminat xərcliyi** | **Faiz** (%) | **Məbləğ** (manatla) |
|---|---|---|---|
| 1. | Vəzifə maaşı | | |
| 2. | Rütbə maaşı | | |
| 3. | Xidmət illərinə görə əlavə | | |
| 4. | Ərzaq payı | | |
| 5. | Məharət dərəcəsinə görə | | |

| **Sıra №-si** | **Təminat xərcliyi** | **Faiz** (%) | **Məbləğ** (manatla) |
|---|---|---|---|
| 6. | | | |
| 7. | | | |
| 8. | | | |
| 9. | | | |
| 10. | | | |

Təminat xərcliyinin cəmi ___________ manat ______ qəpik.

12. Yenidən hesablanmış əmək pensiyasının məbləği ____________ manat _____ qəpik.

13. Ötən dövrlər üzrə təyin olunmuş əmək pensiyası məbləğləri haqqında məlumat:

| Sıra №-si | Təyinolunma tarixi | Son tarix | Məbləğ (manatla) |
|---|---|---|---|
| 1. | | | |
| 2. | | | |
| 3. | | | |
| 4. | | | |
| 5. | | | |

| Sıra №-si | Təyinolunma tarixi | Son tarix | Məbləğ (manatla) |
|---|---|---|---|
| 6. | | | |
| 7. | | | |
| 8. | | | |
| 9. | | | |
| 10. | | | |

Rəhbərin vəzifəsi, adı, soyadı, atasının adı və imzası ________

**M.Y.**

14. Ötən dövrlər üzrə alınmamış əmək pensiyası məbləğləri haqqında məlumat:

| Sıra №-si | Ötən dövr | | Məbləğ (manatla) |
|---|---|---|---|
| | başlanğıc tarixi | son tarix | |
| 1. | | | |
| 2. | | | |
| 3. | | | |
| 4. | | | |
| 5. | | | |

**Qeyd.**

________________________________

________________________________

________________________________

________________________________

İcraçı mühasibin adı, soyadı, atasının adı və imzası ____________

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**11 nömrəli Əlavə**

**Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun**

______________________________________________________________

(Fondun struktur bölməsinin adı)

**Əmək pensiyasının təyin edilməsindən imtina olunması haqqında**

**QƏRAR**

Tarix _____________ № ___________

1. Vətəndaş
1-1. Qanuni nümayəndəsi
2. SSN ______________________________________________________
3. Qeydiyyatda olduğu rayon (şəhər) _________________________________
4. Əmək pensiyasının təyin olunması ilə bağlı müraciətin tarixi ___________
(gün, ay, il)
5. İmtinaya əsas sayılan “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası Qanununun əsas götürüldüyü maddəsi ___________________
6. İmtinanın səbəbi ______________________
7. Əmək pensiyasının növü _______________
8. Əlavə məlumat

_________________________________________________________________

_________________________________________________________________

Rəhbərin vəzifəsi, adı, soyadı, atasının adı və imzası M.Y.

İcraçının vəzifəsi, adı, soyadı, atasının adı və imzası

“Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi Qaydası”na

**12 nömrəli Əlavə**

## Əmək pensiyasının təyin olunması barədə

## BİLDİRİŞ

Hörmətli_______________________________________________

(soyadı, adı və atasının adı)

Pensiyanız ____________ AZN-dir. Kartınızı Sizə yaxın “DOST” mərkəzindən və ya Sizə yaxın Bankın istənilən filialından 15 günə ala bilərsiniz.

___________________